# Aprel döyüşləri – Qarabağın xilasına açılan qapı

## *7 il əvvəl işğalçı Ermənistana layiqli dərs verildi*

**Qarşıdan Azərbaycan tarixinə Aprel döyüşləri kimi düşmüş şanlı qələbəmizin ildönümü gəlir. Azərbaycan Ordusu 2-5 aprel 2016-cı il tarixində ərazilərimizi uzun illərdən bəri işğal altında saxlamış Ermənistan ordusuna özünün ilk sarsıdıcı zərbələrini endirmiş, bu terrorçu dövlətin bütün sütunlarını silkələmişdi. Hətta işğalçı ölkənin o vaxtkı terrorçu prezidenti Serj Sarkisyan da Azərbaycan əsgərinin gözlənilməz qələbəsi qarşısında çaşbaş qalmışdı. Bu, illərdən bəri sıralarını möhkəmlədən, silah-sursat ehtiyatını zənginləşdirən, döyüş qabiliyyətini artıran Azərbaycan Ordusunun düşmənə ilk böyük zərbəsi, tarixi qələbəsi idi. Şübhəsiz ki, Aprel döyüşlərində qazandığımız tarixi qələbə sonrakı zəfərlərimizin rəhni, müjdəçisi oldu.**



Yaxşı yadımızdadır ki, 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələri qoşunların təmas xəttində növbəti təxribata əl atanda hələ Azərbaycan Ordusundan belə ağır cavab alacağını gözləmirdi. Amma əsgərlərimizin əks-əməliyyat zamanı göstərdiyi şücaət Azərbaycan Ordusunun tarixi qələbəsi ilə nəticələndi. Aprel döyüşləri dövlətimizin, ordumuzun gücünü, xalqımızın birliyini, vətənpərvərliyini nümayiş etdirdi.

Təbii ki, Ermənistan gözləməsə də, Azərbaycan Ordusu son illərdə kifayət qədər güc toplamışdı. Ölkədə Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuzun təchizatı sahəsində böyük işlər görülmüşdü. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildən başladığı nizami ordu quruculuğu prosesi 2020-ci ilin noyabrında Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə Ermənistan ordusunun darmadağın edilərək torpaqlarımızdan qovulması ilə başa çatıb. Ordumuz bu illər ərzində ən müasir silahlarla təchiz edilib, ən peşəkar səviyyədə hərbi təlimlərdə bərkiyib. Nəhayət, XXI əsrin müharibəsini böyük rəşadətlə başa vurub, dünyanın ən yaxşı orduları sırasında özünə yer tutub.

Ordumuz 2016-cı ildən sonra 2018-ci ildə də erməni ordusuna öz gücünü göstərmişdi. Ali Baş Komandan İlham Əliyev bununla bağlı 2018-ci ilin iyununda Azadlıq meydanında keçirilmiş hərbi paraddakı çıxışında bildirmişdi ki, Aprel və Naxçıvan qələbələri ordumuzun, xalqımızın vətənpərvərlik ruhunu gücləndirir: "2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Naxçıvan əməliyyatında işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun böyük mənəvi əhəmiyyəti var. Həmin bu bayraqlar bu gün bu hərbi paradda, Azadlıq meydanında nümayiş etdirilir. Bu bayraqlar döyüş bayraqlarıdır. Bu bayraqlar işğaldan azad edilmiş torpaqlarda dalğalanır və hərbi parad üçün bura gətirilib. Gün gələcək, işğaldan azad olunmuş torpaqlarda qaldırılan Azərbaycan bayraqları Azadlıq meydanına gətiriləcək və hərbi paradda nümayiş etdirləcək".

Yaxın hərb tariximizin parlaq səhifələrindən olan Aprel döyüşləri zamanı müasir və qüdrətli Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vurmaqla strateji əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqəsini, o cümlədən, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının ərazilərində işğal altında olan hektarlarla torpağımızı azad etdi. Füzuli rayonu istiqamətində yerləşən, geniş ərazini nəzarətdə saxlamaq imkanı verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi də Milli Ordumuzun nəzarəti altına keçdi. Aprel döyüşlərindəki parlaq qələbə işğaldan azad edilmiş ərazilərin, o cümlədən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin təhlükəsizliyini də gücləndirdi. Sonradan dövlət başçımızın sərəncamlarına əsasən, Cocuq Mərcanlı kəndi qısa zamanda bərpa olundu, quruculuq işləri həyata keçirildi və kənd əhalisi öz ev-eşiyinə qayıtdı.

Tarix göstərdi ki, Azərbaycan xalqı Qarabağın işğalı ilə, doğrudan da, barışmadı. Amma əvvəlcə 2018-ci ilin mayında Naxçıvanda uğurlu Güngüt əməliyyatı aparıldı. Keçən əsrin 90-cı illərinin əvvəllərində ermənilər tərəfindən zəbt edilmiş 11 min hektar torpağımız Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu tərəfindən aparılmış uğurlu əməliyyat nəticəsində azad olundu.

Bundan bir ay sonra – 2018-ci il iyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakının Azadlıq meydanında baş tutmuş təntənəli hərbi paradda 2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad olunmuş torpaqlarda qaldırılmış Azərbaycan bayraqları nümayiş etdirildi. Daha sonra azad edilmiş torpaqlarda qaldırılmış Azərbaycan bayraqları, Prezident İlham Əliyevin dediyi kimi, 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında xalqın gözünə gəldi.

Azərbaycan tarixində Vətən müharibəsi kimi əbədiləşdirilmiş şanlı savaş isə 27 sentyabr 2020-ci ildə başladı. Nəhayət ki, çoxdan gözlənilən "Dəmir yumruğ"un işə düşdüyü həmin gün Azərbaycan tarixində xüsusi bir səhifədir. Uzun əsrlərdən, illərdən sonra Azərbaycan zorla əlindən alınmış torpaqları uğrunda ölüm-dirim savaşına başladı və böyük Zəfər qazanaraq torpaqlarımıza qarşı qıcanmış məkrli dişləri sındırıb tökdü, tarixi ərazilərimizə susamış başları əzdi. Ona görə də sentyabrın 27-də başlamış və noyabrın 8-də Şuşanın alınması ilə, demək olar ki, başa çatmış 44 günlük savaş Azərbaycanın şərəf tarixi kimi daim xatırlanmalı, şəhidlərimiz minnətdarlıq hissi ilə yad olunmalıdır.

Prezident İlham Əliyev də xalqa müracətlərindən birində bildirirdi: "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq…Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik".

Bu gün Azərbaycan xalqı təkcə Aprel döyüşlərinin iştirakçıları ilə deyil, özünün bütün qəhrəman oğulları, müqəddəs şəhidləri ilə fəxr edir, onların xatirəsini uca tutur. Aprel döyüşlərində həlak olmuş Milli Qəhrəman Samid İmanovun ailəsi də onunla qürur duyur. Həyat yoldaşı Badam İmanova bildirib ki, Samid İmanovun həlak olması ailəni nə qədər kədərləndirsə də, onun Vətən uğrunda qəhrəmanlıq göstərməsi bir o qədər qürurvericidir: "Biz övladlarımızı böyüdürük ki, Vətəni qorusun, yeri gələndə belə şəhid olsun. Vətən sevgisinin ana sevgisi ilə eyni tutulması o deməkdir ki, Vətən torpağı ana qədər əzizdir".

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***